# Azərbaycan və Vyetnam xalqları arasında tarixi köklərə və dostluğa əsaslanan münasibətlər mövcuddur

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti noyabrın 22-də Vyetnam Dostluq Assosiasiyaları İttifaqının nəzdində fəaliyyət göstərən Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının sədri, Vyetnam Dövlət Auditi sədrinin müavini Danq The Vin ilə görüşüb.







Görüşdə xalqlarımız arasında dostluq əlaqələrinin tarixi əhəmiyyətindən bəhs olunub və hazırda müxtəlif sahələri əhatə edən dövlətlərarası əməkdaşlığın önəmi vurğulanıb.

Qonaqları salamlayan Danq The Vin Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası haqqında ətraflı məlumat verib. O, rəhbərlik etdiyi qurumun öz fəaliyyətini Azərbaycan və Vyetnam xalqları arasındakı uzunmüddətli səmimi dostluq münasibətlərinə uyğun qurduğunu qeyd edib. Danq The Vin ötən əsrin ortalarında müharibələrdən əziyyət çəkən Vyetnamın bərpası istiqamətində mühüm işlər görüldüyünü, Azərbaycan xalqının vyetnamlılara dəstəyinin yüksək qiymətə layiq olduğunu bildirib.

Vurğulanıb ki, üzvlərinin əksəriyyəti ni Azərbaycanı yaxından tanıyan vyetnamlıların təşkil etdiyi Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası onların Azərbaycan xalqı ilə bağlarının qorunub saxlanılmasına və daha da möhkəmləndirilməsinə xidmət edən işlər görür. O, vaxtilə Azərbaycanda ali təhsil almış vyetnamlı gənclərin bir çoxunun Vyetnamın ictimai-siyasi həyatında fəal rol oynadıqlarını, iki xalq arasında əlaqələrin möhkəmləndirilməsinə mühüm töhfələr verdiklərini söyləyib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan və Vyetnam xalqları arasında tarixi köklərə və dostluq prinsipinə əsaslanan səmimi münasibətlərin mövcud olduğunu diqqətə çatdırıb. 1959-cu ildə Vyetnamın ozamankı Prezidenti Ho Şi Minin Azərbaycana və 1983-cü ildə Ümummilli Lider Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi Vyetnama səfərlərinin xalqlarımız arasında münasibətlərin və ölkələrarası əməkdaşlıq əlaqələrinin qurulmasında müstəsna rol oynadığını deyib. Onun sözlərinə görə, Azərbaycanın müstəqilliyinin bərpasından sonra yaradılan diplomatik əlaqələr və iki ölkə prezidentlərinin qarşılıqlı səfərləri münasibətlərin dinamik inkişafı üçün geniş imkanlar formalaşdırıb. Azərbaycan ilə Vyetnam arasında təhsil, turizm, biznes, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanlarından bəhs edən Tahir Budaqov Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının bu sahədə önəmli platformalardan olduğunu vurğulayıb.

Xalq diplomatiyasının Azərbaycan-Vyetnam münasibətlərinin inkişafı baxımından önəmli olduğunu söyləyən YAP Sədrinin müavini iki ölkənin gəncləri arasında sıx təmasların qurulmasının əhəmiyyətini diqqətə çatdırıb. Azərbaycanın regionlarının geniş iqtisadi potensiala malik olduğunu və uğurla inkişaf etdiyini vurğulayan Tahir Budaqov işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işlərinin həyata keçirildiyini bildirərək "Vyetnamlı dostlarımızın bu prosesdə iştirakından məmnun olarıq" deyib.

Görüşdə Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının fəxri sədri Nqiem Vu Xay Azərbaycan və Vyetnam xalqları arasında dostluğun nümunəvi olduğunu diqqətə çatdıraraq birgə təşəbbüslərin bundan sonra da hər iki tərəfə fayda gətirəcəyini qeyd edib.

Görüşdən sonra YAP nümayəndə heyəti Vyetnam Hərb Tarixi Muzeyini ziyarət edib.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.-23 noyabr, № 255.- S.5.